# Microsoft License Terms

**Son Yenilənmə tarixi: dekabr 2016**

**MICROSOFT PROQRAMININ LİSENZİYA ŞƏRTLƏRİ**

**WINDOWS ƏMƏLİYYAT SİSTEMİ**

---

**ƏGƏR SİZ BİRLƏŞMİŞ ŞTATLARDA YAŞAYIRSINIZSA (VƏ YA FƏALİYYƏT GÖSTƏRİRSİNİZSƏ), 10-CU BÖLMƏDƏ VERİLMİŞ ARBİTRAJ VƏ KOLLEKTİV İDDİA QALDIRILMASINDAN İMTİNA MADDƏSİNİ OXUYUN. BU MADDƏ MÜBAHİSƏLƏRİN HƏLLİNƏ TƏSİR GÖSTƏRİR.**

**“Microsoft”u seçdiyiniz üçün sizə təşəkkür edirik!**

Windows proqram təminatını necə əldə etməyinizdən asılı olaraq, bu, (i) sizinlə cihazla birlikdə proqram təminatını paylayan cihaz istehsalçısı və ya proqram təminatı quraşdırıcısı; və ya (ii) proqram təminatını pərakəndə satıcıdan aldığınız hallarda sizinlə Microsoft Corporation (və ya harada yaşadığınızdan və ya sahibkarlıq müəssisələri üçün müəssisənin qeydiyyat ünvanının harada yerləşməsindən asılı olaraq, onun filiallarından biri) arasında bağlanan lisenziya müqaviləsidir. Microsoft və ya onun filiallarından biri tərəfindən istehsal edilən cihazlar üçün Microsoft cihaz istehsalçısı, birbaşa “Microsoft”dan alınan proqram təminatları üçün Microsoft pərakəndə satıcı sayılır.

Bu müqavilədə Windows proqram təminatının istifadəsi üzrə hüquqlarınız və şərtlər təsvir edilir. Siz bütün müqaviləni, o cümlədən proqram təminatını müşayiət edən hər hansı əlavə lisenziya şərtlərini və hər hansı əlaqəli şərtləri nəzərdən keçirməlisiniz, çünki şərtlərin hamısı əhəmiyyətlidir və birlikdə sizə tətbiq olunan bu müqaviləni təşkil edir. Əlaqəli şərtləri nəzərdən keçirmək üçün bu (aka.ms/) əlaqəni baxış proqramı pəncərəsinə əlavə etməlisiniz.

**Bu müqaviləni qəbul etməklə və ya proqram təminatını istifadə etməklə, bu şərtlərin hamısı ilə razılaşmış olursunuz və 3-cü bölmədə təsvir edilmiş məxfilik bildirişinə əsasən aktivləşdirmə və proqram təminatından istifadə zamanı müəyyən məlumatların ötürülməsinə razılıq verirsiniz. Bu şərtləri qəbul etməsəniz və ya onlara əməl etməsəniz, proqram təminatını və ya onun xüsusiyyətlərini istifadə edə bilməyəcəksiniz.** Siz cihaz istehsalçısı və ya quraşdırıcı ilə və ya proqram təminatını birbaşa aldığınız təqdirdə pərakəndə satıcı ilə əlaqə saxlayaraq qaytarma siyasəti barədə məlumat əldə edə bilər və proqram təminatını və ya cihazı həmin siyasətə əsasən qaytararaq ödənişinizi geri götürə bilərsiniz. Bu siyasət ödənişi geri qaytarmaq üçün proqram təminatının quraşdırılmış olduğu cihazla birlikdə geri qaytarılmasını (əgər varsa) tələb edə bilər və siz ödənişi qaytarmaq üçün bu siyasətə əməl etməlisiniz.

**1. Qısa məlumat.**

**a. Tətbiq olunma.** Bu müqavilə cihazınızda əvvəlcədən quraşdırılmış və ya pərakəndə satıcıdan alınaraq sizin tərəfinizdən quraşdırılmış Windows proqram təminatına, proqram təminatını üzərində qəbul etdiyiniz mediaya (əgər varsa), proqram təminatına daxil olan hər hansı şrift, işarə, təsvir və ya səs fayllarına və proqram təminatı üçün hər hansı Microsoft yeniləmələri, təkmilləşdirmələri, əlavələri və ya xidmətlərinə (bunlarla birlikdə başqa şərtlər təmin edilməsə) tətbiq olunur. O, həmçinin Windows sisteminə daxil olan və onun bir hissəsi sayılan Microsoft tərəfindən hazırlanmış poçt, əlaqə şəxsləri, musiqi və fotolar kimi funksiyalar təmin edən Windows proqramlarına tətbiq olunur. Əgər bu müqavilədə sizin cihazınızda olmayan xüsusiyyət və ya xidmətlə əlaqəli şərtlər mövcud olarsa, o zaman həmin şərtlər tətbiq olunmayacaq.

**b. Əlavə şərtlər.** Cihazınızın imkanlarından, onun necə konfiqurasiya edilməsindən və sizin cihazdan necə istifadə etməyinizdən asılı olaraq, müəyyən xüsusiyyətlər, xidmətlər və proqramların istifadə edilməsinə əlavə Microsoft və üçüncü tərəf şərtləri tətbiq oluna bilər. Onları mütləq oxuyun.

(i) Bəzi Windows proqramları onlayn xidmətlərə giriş nöqtəsi təmin edir və ya əsaslanır və bu xidmətlərin istifadəsi bəzən (aka.ms/msa) ünvanında yerləşən Microsoft Xidmət Müqaviləsi kimi ayrı şərtlər və məxfilik siyasətləri ilə tənzimlənir. Bu şərtləri və siyasətləri oxumaq üçün xidmətlər üzrə istifadə şərtlərinə və ya proqramın parametrlərinə baxa bilərsiniz. Xidmətlər bütün regionlarda mövcud olmaya bilər.

(ii) Microsoft, istehsalçı və ya quraşdırıcı əlavə proqramları daxil edə bilər və bu proqramlar ayrı lisenziya şərtləri və məxfilik siyasətləri ilə tənzimlənəcəkdir.

(iii) Bu proqrama Adobe Systems Incorporated şirkətinin (aka.ms/adobeflash) ünvanında yerləşən şərtlərinə əsasən lisenziyalaşdırılmış Adobe Flash Player daxildir. Adobe və Flash Adobe Systems Incorporated şirkətinin ABŞ-da və/və ya digər ölkələrdə qeydə alınmış əmtəə nişanları və ya əmtəə nişanlarıdır.

(iv) Bu proqrama bu müqaviləyə və ya üçüncü tərəflərin şərtlərinə əsasən lisenziyalaşdırılan üçüncü tərəf proqramlar daxil ola bilər. Üçüncü tərəf proqramlar üçün lisenziya şərtləri, bildirişlər və bəyanatlara (aka.ms/thirdpartynotices) ünvanında baxa bilərsiniz.

(v) Ayrı bir müqavilə ilə sizə kommersiya məqsədilə istifadə üçün hüquqlar verilmədiyi hallarda, Windows sisteminə daxil olan Word, Excel, PowerPoint və OneNote proqramları şəxsi, qeyri-kommersiya məqsədilə istifadə etməyiniz üçün lisenziyalaşdırılır.

**2. Quraşdırma və istifadə hüquqları.**

**a. Lisenziya.**Proqrama lisenziya verilir, o satılmır. Bu müqaviləyə əsasən, onun bütün tələblərinə əməl etmək şərtilə, biz sizə proqramın bir nümunəsini öz cihazınızda (lisenziyalı cihaz) quraşdırmaq və icra etmək hüququ veririk (hər dəfə bir nəfər istifadə edə bilər). Əsl olmayan proqram təminatının Microsoft və ya səlahiyyət verilmiş mənbələrdən əldə edilən proqram təminatı ilə yenilənməsi və ya təkmilləşdirilməsi nəticəsində proqram təminatını əsl proqram təminatına çevrilmir və belə halda, onu istifadə etməyə lisenziya verilmir.

**b.Cihaz.** Bu müqavilədə "cihaz" proqram təminatını icra etmək üçün lazımi daxili yaddaş cihazına malik olan avadanlıq sistemi (fiziki və ya virtual) mənasını daşıyır. Avadanlıq bölməsi və ya bleydi cihaz hesab olunur.

**c.Məhdudiyyətlər.** İstehsalçı və ya quraşdırıcı və Microsoft bu müqavilədə qeyd edilməyən bütün hüquqları (məsələn: əqli mülkiyyət qanunlarına əsasən tənzimlənən hüquqlar) özündə saxlayır. Məsələn, bu lisenziya sizə aşağıdakıları etmək üçün heç bir hüquq vermir və siz aşağıdakıları edə bilməzsiniz:

(i) proqram təminatının xüsusiyyətlərini ayrıca istifadə etmək və ya virtuallaşdırmaq;

(ii) proqram təminatını yayımlamaq, nüsxəsini çıxarmaq (icazə verilən ehtiyat nüsxə istisna olmaqla) icarəyə vermək, kirayə vermək və ya borc vermək;

(iii) proqram təminatını ötürmək (bu müqavilədə icazə verilən hallar istisna olmaqla);

(iv) proqram təminatına dair qadağalar və ya texniki məhdudiyyətlərdən kənara çıxmaq;

(v) proqram təminatını kommersiya məqsədli hostinq üçün server proqramı kimi istifadə etmək, proqram təminatını şəbəkə vasitəsilə çox sayda istifadəçinin eyni zamanda istifadəsinə vermək, proqram təminatını serverə quraşdıraraq, istifadəçilərin uzaqdan daxil olmasına icazə vermək və ya proqram təminatını cihazda quraşdıraraq yalnız uzaqdan istifadəçilərin istifadəsinə vermək;

(vi) proqram təminatının əks mühəndisliyi, dekompilyasiyası və ya hissələrə ayrılması və ya bunu etmə cəhdi, yuxarıda qeyd edilən məhdudiyyət ilə bağlı bu hallarda istisna olmaqla və yalnız bu hallarda tətbiq olunmaqla: (a) qanunla icazə verilən hallar; (b) proqram təminatına daxil olan açıq mənbə komponentlərinin istifadəsini tənzimləyən lisenziya şərtləri əsasında icazə verilən hallar; və ya (c) proqram təminatına daxil olan və onunla əlaqələndirilən GNU Lesser Ümumi Açıq Lisenziya əsasında lisenziyalaşdırılan kitabxanalara edilən dəyişikliklərin düzəldilməsi üçün tələb olunduqda; və

(vii) İnternetə qoşularaq işləyən xüsusiyyətləri istifadə edərkən, başqalarının istifadəsinə mane olacaq şəkildə istifadə etməməlisiniz və ya hər hansı xidmət, verilənlər,

hesab və ya şəbəkəni icazəsiz istifadə etməməli və ya daxil olmağa çalışmamalısınız.

**d. Çox sayda versiyadan istifadə üzrə ssenarilər.**

(i) **Çox sayda versiya.** Proqram təminatını əldə edərkən sizə çox sayda versiya (məsələn, 32-bit və 64-bit versiyaları) verilibsə, siz eyni vaxtda bu versiyalardan yalnız birini quraşdıra və aktivləşdirə bilərsiniz.

(ii) **Çoxsaylı və ya toplu bağlantılar.** Bağlantıları çoxaltmaq və ya toplamaq və ya proqram təminatına daxil olan və ya onu istifadə edən cihazların və ya istifadəçilərin sayını azaltmaq üçün istifadə etdiyiniz avadanlıq və ya proqram təminatı ehtiyacınız olan lisenziyaların sayını azaltmır. İstifadə etdiyiniz proqram təminatının hər bir nümunəsi üçün ayrıca lisenziyanız varsa, yalnz o zaman belə avadanlıq və ya proqram təminatından istifadə edə bilərsiniz.

(iii) **Cihazların qoşulması.** Aşağıdakı proqram təminatı xüsusiyyətlərini istifadə etmək məqsədi ilə lisenziyalı cihazda quraşdırılmış proqram təminatına 20-yə qədər başqa cihazın müraciətinə icazə verə bilərsiniz: lisenziyalı cihazda fayl xidmətləri, çap xidmətləri, İnternet informasiya xidmətləri və İnternet bağlantısını paylaşma və telefoniya xidmətləri. Cihazlar arasında məlumatları sinxronlaşdırmaq üçün lisenziyalı cihazda quraşdırılmış proqram təminatına istənilən sayda cihazın müraciətinə icazə verə bilərsiniz. Lakin bu bölmədən belə məna çıxarılmamalıdır ki, sizin bu digər cihazlardan hər hansı birində proqram təminatını quraşdırmaq və ya proqram təminatının əsas funksiyasını istifadə etmək (bu bölmədə qeyd edilən xüsusiyyətlərdən başqa) hüququnuz var.

(iv) **Virtuallaşdırılmış mühitdə istifadə.** Bu lisenziya sizə fiziki və ya virtual olan bir cihazda proqram təminatının yalnız bir nümunəsini quraşdırmaq və istifadə etmək üçün icazə verir. Əgər siz proqram təminatını birdən artıq virtual cihazda istifadə etmək istəyirsinizsə, hər nümunə üçün ayrı lisenziya əldə etməlisiniz.

(v) **Uzaqdan müraciət.** Maksimum 90 gündə bir dəfə lisenziyalı cihazı lisenziyalı istifadəçi kimi fiziki istifadə edən bir istifadəçi təyin edə bilərsiniz. Lisenziyalı istifadəçi uzaqdan müraciət texnologiyalarından istifadə edərək başqa cihazdan lisenziyalı cihaza müraciət edə bilər. Yalnız bu proqram təminatının eyni yaxud daha yüksək versiyasını icra etmək üçün ayrıca lisenziyalaşdırılmış cihazlarda olmaq şərtilə, digər istifadəçilər fərqli vaxtlarda uzaqdan müraciət texnologiyalarından istifadə edərək başqa cihazdan lisenziyalı cihaza müraciət edə bilərlər.

(vi) **Uzaq köməkçi.** Proqram təminatı üçün əlavə lisenziya əldə etmədən aktiv seansı paylaşmaq üçün uzaq köməkçi texnologiyalarından istifadə edə bilərsiniz. Uzaq

köməkçi adətən problemləri düzəltmək üçün bir istifadəçinin birbaşa digər istifadəçinin kompüterinə qoşulmasına imkan verir.

**e.Ehtiyat nüsxə.** Siz ehtiyat nüsxə çıxarmaq məqsədilə proqram təminatının bir nüsxəsini çıxara bilər və əgər bu, müstəqil proqram təminatı kimi alınıbsa, aşağıda Bölmə 4-də təsvir edildiyi kimi onu ötürmək üçün həmin ehtiyat nüsxəni istifadə edə bilərsiniz.

3. **Məxfilik; Məlumatların istifadəsinə razılıq verilməsi.** Sizin məxfiliyiniz bizim üçün önəmlidir. Bəzi proqram təminatı xüsusiyyətlərindən istifadə edərkən, həmin xüsusiyyətlər məlumat göndərir və ya qəbul edir. Bu xüsusiyyətlərin bir çoxunu istifadəçi interfeysindən söndürə bilər və ya onları istifadə etməyə bilərsiniz. Bu müqaviləni qəbul etməklə və proqram təminatını istifadə etməklə siz qəbul edirsiniz ki, Microsoft Məxfilik Bildirişində (aka.ms/privacy) təsvir edildiyi kimi və proqram xüsusiyyətləri ilə əlaqəli istifadəçi interfeysində təsvir edilə biləcəyi kimi Microsoft məlumatları toplaya, istifadə edə və açıqlaya bilər.

4. **Ötürmə.** Əgər bu proqramı istehlakçı kimi Almaniyadan və ya bu saytda (aka.ms/transfer) sıralanmış hər hansı digər ölkədən almısınızsa, bu bölmənin şərtləri tətbiq edilmir, belə hallarda proqramın və ondan istifadə hüququnun üçüncü tərəfə ötürülməsi müvafiq qanun çərçivəsində tənzimlənir.

   a. **Cihazda əvvəlcədən quraşdırılmış proqram təminatı.** Proqram təminatını hər hansı cihazda əvvəlcədən quraşdırılmış şəkildə əldə etmisinizsə (və hər hansı cihazda əvvəlcədən quraşdırılmış proqram təminatından təkmilləşdirmisinizsə), bu proqramdan istifadə üçün başqa istifadəçiyə birbaşa lisenziyanı ötürə bilərsiniz, lakin digər istifadəçinin cihazı da lisenziyalı olmalıdır. Bu zaman proqram təminatı və cihazla birlikdə təmin edilibsə, məhsul açarını ehtiva edən əsl Windows nişanı da ötürülməlidir. Proqramın hər hansı səlahiyyətli verilməsindən əvvəl digər tərəf bu müqavilənin proqramın verilməsinə və istifadəsinə tətbiq olunduğunu qəbul etməlidir.

   b. **Müstəqil proqram təminatı.** Proqram təminatını ayrılıqda əldə etmisinizsə (və ayrılıqda əldə etdiyiniz proqram təminatından təkmilləşdirmisinizsə), bu proqramı özünüzə məxsus başqa cihaza ötürə bilərsiniz. Əgər (i) siz proqram təminatının ilk lisenziyalı istifadəçisisinizsə və (ii) yeni istifadəçi bu müqavilənin şərtləri ilə razılaşırsa, o zaman proqram təminatını başqasına məxsus cihaza da ötürə bilərsiniz. Proqram təminatını ötürmək çıxarmaq üçün sizə icazə verdiyimiz ehtiyat nüsxəni və ya proqram təminatının üzərində gəldiyi medianı istifadə edə bilərsiniz. Hər dəfə proqram təminatını yeni cihaza ötürərkən proqram təminatını əvvəlki cihazdan silməlisiniz. Proqram təminatını ötürərək, lisenziyaları cihazlar arasında paylaşa bilməzsiniz.

5. **Proqram təminatı və səlahiyyət verilmiş aktivləşdirmə.** Yalnız müvafiq lisenziyanız olduqda və proqram təminatı əsl məhsul açarı ilə və ya digər icazə verilən metod ilə aktivləşdirildikdə bu proqram təminatını istifadə etmək səlahiyyəti əldə edirsiniz. Proqramı istifadə edən

zaman İnternetə qoşulduqda, proqram avtomatik olaraq Microsoft və ya onun filialı ilə əlaqə saxlayacaq, bu zaman aktivləşdirmə icra ediləcək və o, müəyyən cihazla əlaqələndiriləcək. Siz proqramı əl ilə İnternet və ya telefon vasitəsilə də aktivləşdirə bilərsiniz. Hər iki halda müəyyən məlumatlar ötürüləcək və İnternet, telefon və SMS xidməti ödənişləri tətbiq edilə bilər. Aktivləşdirmə (və ya cihazın komponentlərinə dəyişiklik edildikdə işə düşən yenidən aktivləşdirmə) zamanı proqram təminatı proqram təminatının quraşdırılmış nümunəsinin saxta, düzgün lisenziyalaşdırılmamış olmasını və ya icazə verilməmiş dəyişikliklərin edilməsini təyin edə bilər. Aktivləşdirmə uğursuz olsa, proqram təminatı dəyişiklik edilmiş Microsoft proqram təminatını əsl Microsoft proqram təminatı ilə əvəz edərək özünü təmir etməyə çalışacaq. Sizə həmçinin proqram təminatı üçün düzgün lisenziya əldə etmək barədə xatırladıcılar gələ bilər. Uğurlu aktivləşdirmə proqramın əsl olduğunu və ya düzgün lisenziyalaşdırıldığını təsdiqləmir. Aktivləşdirməni ötürə və ya keçə bilməzsiniz. Proqramın əsl olub-olmadığını və sizə lazımi qaydada lisenziya verilib-verilmədiyini təyin etmək üçün (aka.ms/genuine) ünvanına baxın. Müəyyən yeniləmələr, dəstək və digər xidmətlər yalnız əsl Microsoft proqram təminatı istifadəçilərinə təklif edilə bilər.

6. **Yeniləmələr.** Proqram təminatımütəmadi olaraq sistem və proqram yeniləmələrini yoxlayır və onları sizin üçün yükləyir və quraşdırır. Siz yeniləmələri yalnız Microsoft və ya icazə verilən mənbələrdən əldə edə bilərsiniz və Microsoft bu yeniləmələri təmin etmək üçün sizin sisteminizi yeniləməlidir. Bu müqaviləni qəbul etməklə, siz əlavə heç bir bildiriş verilmədən bu növ avtomatik yeniləmələrin qəbuluna razılıq verirsiniz.

7. **Köhnə varianta qayıtma hüquqları.** Əgər siz əvvəlcədən peşəkar Windows versiyası quraşdırılmış bir cihazı istehsalçı və ya quraşdırıcıdan almısınızsa, Microsoft əvvəlki versiyalar üçün (aka.ms/windowslifecycle) ünvanında qeyd edildiyi kimi dəstək təmin etdiyi təqdirdə, Windows 8.1 Pro və ya Windows 7 Professional versiyasını istifadə edə bilərsiniz. Bu müqavilə daha əvvəlki versiyalardan istifadə etmənizə də tətbiq olunur. Əgər köhnə versiyaya fərqli komponentlər daxildirsə, köhnə versiyanın müqaviləsindəki həmin komponentlərə aid şərtlər onlardan istifadənizə tətbiq olunur. Nə istehsalçı və ya quraşdırıcı, nə də Microsoft köhnə versiyaları təchiz etmə məcburiyyətində deyil. Siz köhnə versiyanı ayrıca əldə etməlisiniz və bunun üçün sizdən ödəniş tələb edilə bilər. İstənilən vaxt köhnə versiyanı proqramın bu əsl versiyası ilə əvəz edə bilərsiniz.

8. **Coğrafi və ixrac məhdudiyyətləri.** Əgər proqram təminatının istifadəsi yalnız müəyyən bir coğrafi ərazi ilə məhdudlaşdırılıbsa, o zaman siz proqram təminatını yalnız həmin ərazidə aktivləşdirə bilərsiniz. Siz həmçinin təyinat nöqtələri, son istifadəçilər və son istifadə üzrə məhdudiyyətləri əhatə edən, proqrama dair bütün yerli və beynəlxalq ixrac qanunları və normativlərinə əməl etməlisiniz. Coğrafi və ixrac məhdudiyyətlərinə dair ətraflı məlumat üçün (aka.ms/georestrict) və (aka.ms/exporting) ünvanına baxın.

9. **Dəstək və ödənişin qaytarılması prosedurları.**

a. **Cihazda əvvəlcədən quraşdırılmış proqram təminatı üçün.** Ümumilikdə proqramın dəstək seçimləri üçün cihazın istehsalçısı və ya quraşdırıcı ilə əlaqə saxlayın. Proqramla birlikdə təqdim olunan dəstək nömrəsinə istinad edin. Birbaşa "Microsoft"dan əldə edilmiş yeniləmələr və əlavələr üçün Microsoft (aka.ms/mssupport) ünvanında təsvir edildiyi kimi düzgün lisenziyalaşdırılmış proqram təminatı üçün məhdud dəstək xidmətləri təmin edə bilər. Əgər siz ödənişi qaytarmaq istəyirsinizsə, istehsalçı və ya quraşdırıcı ilə əlaqə saxlayaraq, onun ödənişi qaytarma siyasətlərini təyin edin. Bu siyasətlər ödənişi geri qaytarmaq üçün proqram təminatının quraşdırılmış olduğu cihazla birlikdə geri qaytarılmasını tələb edə bilər və siz ödənişi qaytarmaq üçün bu siyasətə əməl etməlisiniz.

b. **Pərakəndə satıcıdan alınmış proqram təminatı üçün.** Microsoft (aka.ms/mssupport) ünvanında təsvir edildiyi kimi lazımi qaydada lisenziya verilmiş proqram təminatı üçün məhdud dəstək xidmətləri göstərir. Əgər siz proqram təminatını pərakəndə satıcıdan almısınızsa və ödənişi qaytarmaq istəyirsinizsə, ancaq proqram təminatını aldığınız yerdən ödənişinizi geri ala bilmirsinizsə, Microsoft ilə əlaqə saxlayaraq, onun ödənişi qaytarma siyasətləri barədə məlumat əldə edin. (aka.ms/msoffices) ünvanına baxın və ya Şimali Amerikada (800) MICROSOFT telefon nömrəsinə zənf edin və ya (aka.ms/nareturns) ünvanına baxın.

**10. ABŞ-da yaşayırsınızsa (və ya fəaliyyət göstərirsinizsə), arbitraj və kollektiv iddia qaldırılmasından imtina.**

Ümid edirik ki, heç vaxt aramızda mübahisə yaranmaz, lakin yaransa, siz və biz bu mübahisəni 60 gün ərzində danışıq yolu ilə həll etməyə razılaşırıq. Əgər buna nail olmasaq, siz və biz **bu məsələyə Federal Arbitraj Aktına ("FAA") əsasən Amerika Arbitraj Assosiasiyasında ("AAA") baxılmasına, hakim və ya jüri heyəti qarşısında baxılması üçün məhkəməyə müraciət etməməyə razılıq veririk**. Bu prosesdə bitərəf arbitr qərar verəcək və FAA aktına əsasən appelyasiyaya müraciət edilən hallar istisna olmaqla, onun qərarı yekun qərar hesab olunacaqdır. **Kollektiv məhkəmə işləri, kollektiv arbitrajlar, özəl baş prokurorun iştirakı ilə məhkəmələr və bir nümayəndənin iştirak etdiyi digər məhkəmə işlərinə icazə verilmir. Bütün tərəflərin razılığı olmadan fərdi məhkəmə işləri aparılmır.** "Biz", "bizim" və "bizə" sözləri Microsoft, cihaz istehsalçısı və proqram təminatı quraşdırıcısını bildirir.

a.**Əqli mülkiyyət istisna olmaqla, mübahisələr hər şeyi əhatə edir.** "Mübahisə" termini çox geniş mənada işlənir. Bura sizin, sizin lisenziarların, bizim və ya bizim lisenziarların əqli mülkiyyət hüquqlarından başqa sizinlə **istehsalçı və ya quraşdırıcı və ya sizinlə Microsoft arasında hər hansı bir hüquqi nəzəriyyə, o cümlədən, müqavilə, zəmanət, şərtlərin pozulması, əsasnamə və ya nizamnamə əsasında yaranan proqram təminatı, onun qiyməti, bu müqavilə ilə bağlı ziddiyyət yaxud qarşıdurmalar daxildir**.

**b.ƏvvəlcəMübahisə Bildirişini poçtla göndərin.** Əgər sizdə mübahisə yaranıbsa və müştəri xidməti nümayəndələrimiz bu mübahisəni həll edə bilmirsə, Mübahisə Bildirişini ABŞ poçt xidməti ilə istehsalçıya yaxud quraşdırıcıya aşağıdakı ünvana göndərin (Nəzərinə): HÜQUQ ŞÖBƏSİ. Əgər mübahisə sizinlə Microsoft arasında yaranıbsa, onu Microsoft Corporation şirkətinin bu ünvanına göndərin (ATTN): LCA ARBITRATION, One Microsoft Way, Redmond, WA 98052-6399. Bizə adınızı, ünvanınızı, əlaqə məlumatlarınızı, problemin nə olduğunu və tələbinizi bildirin. Forma (aka.ms/disputeform) ünvanında verilmişdir. Bizim sizinlə mübahisəmiz olsa, eynisini biz də edəcəyik. 60 gündən sonra mübahisə həll olunmasa, arbitraj prosesinə başlaya bilərik.

**c. Kiçik iddalar üzrə məhkəməyə müraciət.** Məhkəmənin tələblərinə cavab verirsinizsə, bizə Mübahisə Bildirişi göndərmək əvəzinə yaşadığınız ərazidə yerləşən (sahibkarlıq müəssisələri üçün müəssisənin yerləşdiyi ərazidəki) və ya mübahisə Microsoft ilə yaranıbsa, bizim müəssisənin qeydə alındığı King County, Washington USA ünvanında yerləşən kiçik iddialar üzrə məhkəməyə müraciət edərək bizə qarşı iddia qaldıra bilərsiniz. Məcbur olmasanız belə, kiçik iddialar üzrə məhkəməyə müraciət etməzdən əvvəl bizə Mübahisə Bildirişi göndərərək, məsələnin həlli üçün 60 gün vaxt verəcəyinizi ümid edirik.

**d. Arbitraj proseduru.** AAA istənilən arbitrajı özünün Kommersiya Müəssisələrinin Arbitraj Qaydalarına (və ya siz fiziki şəxssinizsə və proqram təminatını evdə və ya şəxsi işləriniz üçün istifadə edirsinizsə və ya fiziki şəxs olmağınızdan və ya proqram təminatını necə istifadə etməyinizdən asılı olmayaraq, mübahisənin dəyəri 75 000 ABŞ dolları və ya daha aşağıdırsa, özünün İstehlakçıların Arbitraj Qaydalarına) əsasən keçirəcəkdir. Ətraflı məlumat üçün (aka.ms/adr) ünvanına baxın və ya 1-800-778-7879 nömrəsinə zəng edin. Arbitraja başlamaq üçün (aka.ms/arbitration) ünvanında verilmiş formanı AAA assosiasiyasına göndərin; surətini istehsalçıya və ya quraşdırıcıya (və ya mübahisəniz Microsoft ilədirsə, “Microsoft”a) göndərin. Arbitr prosesin üz-üzə baxılması üçün əsaslı səbəb tapmasa, 25 000 ABŞ dolları və ya daha aşağı məbləği əhatə edən mübahisələrə telefonla baxılacaqdır. Üz-üzə prosesə yaşadığınız ərazidə (sahibkarlıq müəssisələri üçün müəssisənin yerləşdiyi ərazidə) və ya mübahisə Microsoft ilə yaranıbsa, bizim müəssisənin qeydə alındığı King County, Washington ünvanında baxılacaqdır. Siz seçin. Məhkəmənin təyin edəcəyi kompensasiyanı arbitr də təyin edə bilər. Arbitr sizin fərdi iddianızı təmin etmək üçün yalnız sizin üçün təminedici tədbir qərarı verə bilər.

**e.Arbitraj rüsumları və ödənişləri.**

(i) **75 000 ABŞ dolları və ya daha aşağı məbləği əhatə edən mübahisələr.** İstehsalçı və ya quraşdırıcı (və ya mübahisə Microsoft ilə yaranıbsa, Microsoft) dərhal arbitraj prosesi ilə bağlı ödədiyiniz müraciət rüsumunu, “AAA”nın və arbitrin rüsumlarını və xərclərini kompensasiya edəcək. Əgər siz arbitr təyin edilənədək verdiyimiz son razılaşma təklifini rədd etsəniz, proses arbitrin qərar çıxarmasınadək uzansa

("müsbət qərar" adlanır) və arbitr sizə bu son təklifdən daha böyük kompensasiya təyin etsə, o zaman istehsalçı və ya quraşdırıcı (və ya mübahisə Microsoft ilə yaranıbsa, Microsoft) bunları edəcək: (1) təyin edilən məbləğ və ya 1 000 ABŞ dollarından hansı çoxdursa, onu ödəyəcək; (2) məqbul olan bütün vəkil haqqlarını ödəyəcək; və (3) vəkilinizin (ekspert şahid rüsumları və xərcləri daxil) məqbul çərçivədə araşdırma, hazırlıq və iddianın arbitrajda təmin edilməsi üçün xərcləridi bütün xərcləri ödəyəcək. Siz və biz öz aramızda razılığa gələ bilməsək, arbitr məbləği təyin edəcək.

(ii) **75 000 ABŞ dollarından artıq məbləği əhatə edən mübahisələr.** Müraciət rüsumları, AAA və arbitrin rüsumları və xərcləri AAA qaydalarına əsasən tənzimlənəcək.

(iii) **Hər hansı məbləği əhatə edən mübahisələr.** Siz arbitraja müraciət etsəniz, arbitr əsassız səbəbdən və ya nahaq yerə arbitraja müraciət edildiyinə qərar vermədiyi təqdirdə, biz ödədiyimiz AAA və ya arbitr rüsumları və xərclərini və ya ödədiyimiz sizin müraciət rüsumlarını tələb etməyəcəyik. Biz arbitraja müraciət etsək, bütün müraciət, AAA və arbitr rüsumları və xərclərini biz ödəyəcəyik. Heç bir arbitrajda öz vəkilimizə ödədiyimiz rüsumları və ya xərcləri sizdən tələb etməyəcəyik. Mübahisənin əhatə etdiyi məbləği təyin edərkən rüsumlar və xərclər hesablanmır.

**f.Bir il ərzində müraciət edilməlidir.** Biz hər hansı iddia yaxud mübahisə ilə bağlı (əqli mülkiyyətə dair mübahisələr istisnadır – 10.a. bölməsinə baxın) kiçik iddialar məhkəməsinə və ya arbitraja ilk müraciət etmə imkanı olan tarixdən etibarən bir il ərzində müraciət etməliyik. Əks halda müraciətə həmişəlik qadağa qoyulacaq.

**g.Hissələrə bölünmə.** Əgər mübahisənin hamısı yaxud müəyyən hissələri ilə bağlı kollektiv məhkəmə prosesindən imtinanın qanunsuz olduğuna yaxud qüvvədə olmadığına qərar verilsə, həmin hissələrə arbitrajda deyil, məhkəmədə baxılacaq, qalan hissələrə isə arbitrajda baxılacaq. Əgər 10-cu bölmənin hər hansı başqa müddəası qanunsuz olsa yaxud qüvvədən düşsə, həmin müddəaya xitam veriləcək, 10-cu bölmənin qalan müddəaları isə qüvvədə qalacaq.

**h.AAA qaydaları ilə ziddiyyət.** Bu müqavilənin müddəaları AAA Kommersiya Müəssisələrinin Arbitraj Qaydaları və ya İstehlakçıların Arbitraj Qaydalarına zidd olarsa, bu müqavilə üstün tutulacaqdır.

**i.Microsoft tərəf və ya üçüncü tərəf benefisiar kimi.** Əgər Microsoft cihaz istehsalçısıdırsa və ya siz proqram təminatını pərakəndə satıcıdan almısınızsa, Microsoft bu müqavilənin tərəfidir. Əks halda, Microsoft istehsalçı və ya quraşdırıcı ilə bağladığınız müqavilənin tərəfi deyil, üçüncü tərəf benefisiarıdır və mübahisələri danışıqlar və arbitraj yolu ilə həll edir.

**11. Tənzimləyici qanun.** Qanunların ziddiyyəti prinsiplərindən asılı olmayaraq, yaşadığınız (və ya sahibkarlıq müəssisələri üçün müəssisənin yerləşdiyi) ölkə yaxud dövlətin qanunları proqram təminatı, onun qiyməti və ya bu müqavilə ilə bağlı bütün iddialar və mübahisələr, o cümlədən, müqavilə şərtlərinin pozulması ilə bağlı iddialar, dövlət istehlakçıları müdafiə qanunları, haqsız rəqabət qanunları, bəyan edilmiş zəmanət qanunları ilə bağlı iddialarını tənzimləyir. ABŞ-da FAA arbitrajla bağlı bütün müddəaları tənzimləyir.

**12.İstehlakçı hüquqları, regional fərqlər.** Bu müqavilə müəyyən hüquqları əks etdirir. Öz ştat və ya ölkənizin qanunları əsasında sizin digər hüquqlarınız, o cümlədən istehlakçı hüquqlarınız ola bilər. Həmçinin, proqramı əldə etdiyiniz tərəf də sizə müəyyən hüquqlar verə bilər. Dövlət yaxud ölkənizin qanunları icazə verməsə, bu müqavilə həmin digər hüquqları dəyişmir. Məsələn, proqram təminatını aşağıdakı regionlardan birində almısınızsa, və ya icbari ölkə qanunu tətbiq edilirsə, o zaman aşağıdakı şərtlər sizə şamil olunur:

**a. Avstraliya.** "Məhdud Zəmanət"ə istinadlar Microsoft və ya istehsalçı və ya quraşdırıcının açıq şəkildə təmin etdiyi məhdudiyyətə istinadlardır. Bu zəmanət sizin bu qanunla malik ola bildiyiniz digər hüquq və vasitələrə, o cümlədən Avstraliyanın İstehlakçı ilə bağlı Qanunu əsasında qanunvericilik zəmanətlərinə uyğun olan hüquq və vasitələrinizə əlavə kimi verilib.

Bu bölmədə "mallar" termini Microsoft və ya istehsalçı və ya quraşdırıcının açıq şəkildə məhdudiyyət təmin etdiyi proqram təminatını bildirir. Bizim məhsullarımız Avstraliyanın İstehlak qanununa görə istisna oluna bilməyən zəmanətlərlə birgə verilir. Sizin hər hansı vacib xəta üçün əvəzləmə və ya ödənişin qaytarılmasını tələb etmək, yaxud qabaqcadan proqnozlaşdırıla bilən hər hansı digər itki və ya zərərə görə kompensasiya istəmək hüququnuz var. Sizin həm də məhsullar qəbul edilə bilən keyfiyyətdə olmadıqda və xəta əsas xətanın məbləğinə uyğun gəlmədikdə həmin məhsulun bərpasını və ya əvəzlənməsini tələb etmək hüququnuz var.

**b. Kanada.** İnternetə müraciəti söndürməklə cihazınıza yeniləmələrin gəlməsini dayandıra bilərsiniz. İnternetə yenidən qoşulduqda proqram təminatı yeniləmələri axtarmağa və quraşdırmağa davam edəcək.

**c. Avropa İttifaqı.** Aşağıda 13.d(i) bölməsində qeyd edilən akademik istifadə məhdudiyyəti bu saytda sıralanmış ərazilərə tətbiq edilmir: (aka.ms/academicuse).

**d. Almaniya və Avstriya.**

(i) **Zəmanət.** Müvafiq şəkildə lisenziyalaşdırılmış proqram təminatı proqramla birlikdə əldə etdiyiniz Microsoft materiallarında təsvir olunduğu kimi işləyəcək. Lakin, istehsalçı və ya quraşdırıcı və Microsoft lisenziyalı proqram təminatı ilə əlaqəli heç bir rəsmi zəmanət təmin etmir.

(ii) **Məsuliyyətin Məhdudlaşdırılması.** Bilərəkdən edilən, tam səhlənkarlıq nəticəsində baş verən hallar, Məhsul üzrə Məsuliyyət Aktına əsasən qaldırılan iddiaların əhatə etdiyi hallar, eləcə də, ölüm və ya yaralanma hallarında istehsalçı və ya quraşdırıcı və ya Microsoft tənzimləyini qanuna əsasən məsuliyyət daşıyır.

Əvvəlki cümləyə əsasən, istehsalçı və ya quraşdırıcı və ya Microsoft əməl olunduqda müqavilə şərtləri tam yerinə yetirilmiş sayılan, pozulduqda bu müqavilənin məqsədinə nail olunmayan və hər zaman əməl etmək lazım olan maddi müqavilə öhdəliklərini pozarsa, istehsalçı və ya quraşdırıcı və ya Microsoft yalnız yüngül səhlənkarlığa görə məsuliyyət daşıyacaq. Digər yüngül səhlənkarlıq hallarında istehsalçı və ya quraşdırıcı və ya Microsoft yüngül səhlənkarlığa görə məsuliyyət daşımayacaq.

**e. Digər ərazilər.** Ərazi dəyişiklikləri üzrə cari siyahıya baxmaq üçün (aka.ms/variations) ünvanına keçin.

**13. Əlavə Bildirişlər.**

**a. Şəbəkələr, məlumatlar və İnternetdən istifadə.** Proqram təminatının bəzi xüsusiyyətləri və proqram təminatı ilə müraciət edilən xidmətlər cihazınızın İnternetə müraciət etməsini tələb edə bilər. İnternetə müraciət və istifadə (xərclər daxil) mobil və ya internet provayder müqaviləsinin şərtləri ilə tənzimlənə bilər. Proqram təminatının müəyyən xüsusiyyətləri İnternetə daha effektiv müraciət etməyə kömək edə bilər, lakin proqram təminatının istifadəsi üzrə hesablamalar xidmət provayderinizin ölçülərindən fərqli ola bilər. Siz həmişə (i) öz planlarınız və müqavilələrinizin şərtlərini başa düşmək və onlara əməl etməyə və (ii) ümumi/açıq şəbəkələr daxil olmaqla, şəbəkələrə müraciət və ya onlardan istifadə nəticəsində yaranan problemlərə görə məsuliyyət daşıyırsınız. Yalnız icazəniz varsa şəbəkələrə qoşulmaq və bu şəbəkələrə müraciət məlumatlarını paylaşmaq üçün proqram təminatından istifadə edə bilərsiniz.

**b. H.264/AVC və MPEG-4 vizual standartlar və VC-1 video standartları.** Proqram təminatına H.264/MPEG-4 AVC və/və ya VC-1 şifrin açılması texnologiyası daxil ola bilər. MPEG LA, L.L.C. bu bildirişi nəzərinizə çatdırır:

BU MƏHSULA (i) YUXARIDAKI STANDRATLARA (“VİDEO STANDARTLARI”) MÜVAFİQ ŞƏKİLDƏ VİDEONU ŞİFRƏLƏMƏK VƏ/VƏ YA (ii) FƏRDİ VƏ QEYRİ-TİCARİ XARAKTERLİ FƏALİYYƏTLƏ MƏŞĞUL OLAN İSTEHLAKÇI TƏRƏFİNDƏN ŞİFRƏLƏNMİŞ VƏ/VƏ YA BELƏ VİDEONU TƏMİN ETMƏK ÜÇÜN LİSENZİYASI OLAN VİDEO TƏCHİZATÇISINDAN ƏLDƏ EDİLMİŞ AVC, VC-1 VƏ MPEG-4 PART 2 VIDEONUN ŞİFRƏSİNİ AÇMAQ MƏQSƏDİLƏ İSTEHLAKÇININ FƏRDİ VƏ QEYRİ-TİCARİ XARAKTERLİ İSTİFADƏSİ ÜÇÜN AVC, VC-1 VƏ MPEG-4 PART 2 VİZUAL PATENT PORTFELİ LİSENZİYALARI ƏSASINDA LİSENZİYA VERİLMİŞDİR. LİSENZİYA DİGƏR İSTİFADƏ ÜÇÜN VERİLMİR VƏ YA NƏZƏRDƏ

TUTULMUR. ƏLAVƏ MƏLUMAT MPEG LA, L.L.C. ŞİRKƏTİNDƏN ƏLDƏ EDİLƏ BİLƏR. (AKA.MS/MPEGLA) ÜNVANINA BAXIN.

**c.Zərərli proqramlara qarşı müdafiə.** Microsoft cihazınızı zərərli proqramlara qarşı qorumaq üçün tədbirlər görür. Başqa müdafiə quraşdırılmayıbsa və ya vaxtı keçibsə proqram təminatı zərərli proqramlara qarşı müdafiəni işə salacaq. Bunu etmək üçün digər zərərli proqramlara qarşı proqram təminatı qeyri-aktiv ediləcək və ya silinməsi tələb olunacaq.

**d. Məhdud hüquqluversiyalar.** Əgər aldığınız proqram təminatı versiyası xüsusi və ya məhdud istifadə üçün nəzərdə tutulubsa, həmin versiyanı ancaq nəzərdə tutulan məqsəd üçün istifadə etmək olar. Proqram təminatının belə versiyalarını kommersiya, qeyri-kommersiya və ya gəlir məqsədli fəaliyyətlər üçün istifadə edə bilməzsiniz.

(i) **Akademik.** Akademik istifadə üçün satınalma zamanı siz tələbə, müəllik və ya təhsil müəssisəsinin işçisi olmalısınız.

(ii) **Qiymətləndirmə.** Qiymətləndirmə (və ya sınaq və ya nümayiş) üçün proqram təminatını sata, canlı əməliyyat mühitində istifadə edə və ya qiymətləndirmə dövründən sonra istifadə edə bilməzsiniz. Bu Müqavilədə qeyd edilən ziddiyyətli müddəalara baxmayaraq, **qiymətləndirmə proqramı "OLDUĞU KİMİ" təmin edilir və nəzərdə tutulan və ya açıq şəkildə bildirilmiş heç bir zəmanət (Məhdud Zəmanət də daxil olmaqla) bu versiyalara tətbiq edilmir**.

(iii) **NFR.** Siz "NFR" və ya "Təkrar Satış üçün Deyil" qeyd olunmuş proqramı sata bilməzsiniz.

(iv) **Önbaxış.** Siz proqramın Microsoft şirkəti tərəfindən təmin edilən önbaxış, daxili, beta və ya digər buraxılış öncəsi versiyalarından ("önbaxışlar") istifadə etməyi seçə bilərsiniz. Önbaxışları proqramın son istifadə müddətinə qədər və yalnız müqavilənin bütün şərtlərinə əməl etdiyiniz halda istifadə edə bilərsiniz. Önbaxışlar eksperimentaldır və kommersiya məqsədilə buraxılan versiyadan xeyli dərəcədə fərqli ola bilər. Bu Müqavilədə qeyd edilən ziddiyyətli müddəalara baxmayaraq, **qiymətləndirmə proqramı "OLDUĞU KİMİ" təmin edilir**və nəzərdə tutulan və ya açıq şəkildə bildirilmiş heç bir zəmanət (Məhdud Zəmanət də daxil olmaqla) bu versiyalara tətbiq edilmir. **Cihazınızda önbaxışları quraşdırmaqla cihaz zəmanətinizi etibarsız və ya yararsız edə bilərsiniz və lazım olduqda cihaz istehsalçınızdan və ya şəbəkə operatorunuzdan dəstək almaq hüququnuz olmayacaq**. Microsoft bununla əlaqədar sizə dəyən heç bir zərərə görə məsuliyyət daşımır. Microsoft önbaxışlar üçün dəstək xidməti təmin etmir. Microsoft-a önbaxış ("təqdimetmə") ilə bağlı şərhlər, təkliflər və ya digər əks əlaqələr təqdim edirsinizsə, Microsoft-a və partnyorlarına təqdimetməni istənilən tərzdə və istənilən məqsədlə istifadə etmək hüququ vermiş olursunuz

**14. Bütün müqavilə.** Bu müqavilə (istehsalçı və ya quraşdırıcı və ya Microsoft tərəfindən təmin edilən və sizin istifadə etdiyiniz hər hansı proqram təminatı əlavələri, yeniləmələri və xidmətləri müşayiət edən kağıza çap edilmiş lisenziya şərtləri və ya digər şərtlərlər birlikdə) və bu müqavilədə qeyd edilən veb əlaqələrdə verilmiş şərtlər proqram təminatı əlavələri, yeniləmələri və xidmətlər üzrə bütöv müqaviləni təşkil edir (istehsalçı və ya quraşdırıcı və ya Microsoft tərəfindən bu proqram təminatı əlavələri, yeniləmələri və xidmətlərlə birlikdə başqa şərtlər təmin edilmədiyi təqdirdə). Proqram təminatı icra olunduqdan sonra (aka.ms/useterms) ünvanına gedərək və ya proqram təminatının içində Parametrlər – Sistem – Haqqında bölməsinə gedərək bu müqaviləni nəzərdən keçirə bilərsiniz. Siz bu müqavilədə verilmiş linklərdəki şərtləri nəzərdən keçirmək üçün URL ünvanı baxış proqramının ünvan sətrinə yazaraq nəzərdən keçirə bilərsiniz və siz bunu etməyə razılıq verirsiniz. Siz razılıq verirsiniz ki, proqram təminatı və ya xidmətləri istifadə etməzdən əvvəl bu şərtləri, o cümlədən əlaqələrdə verilmiş şərtləri oxuyacaqsınız. Siz başa düşürsünüz ki, proqram təminatı və ya xidmətləri istifadə etməklə, bu müqaviləni və əlaqələrdə verilmiş şərtləri qəbul etmiş olacaqsınız. Bu müqavilədə həmçinin məlumat xarakterli əlaqələr də mövcuddur. Bildirişləri və şərtləri ehtiva edən əlaqələr bunlardır:

· Microsoft Məxfilik Bildirişi (aka.ms/privacy)

· Microsoft Xidmət Müqaviləsi (aka.ms/msa)

· Adobe Flash Player Lisenziya Şərtləri (aka.ms/adobeflash)

**************************************************************************

## ZƏMANƏTİN VERİLMƏMƏSİ

CİHAZINIZDA QURAŞDIRILMIŞ PROQRAM TƏMİNATI (PROQRAMLAR DAXİL OLMAQLA) “OLDUĞU KİMİ” LİSENZİYALAŞDIRILIR. SİZİN YERLİ QANUNLARINIZIN İCAZƏ VERDİYİ MAKSİMUM ÇƏRÇİVƏDƏ PROQRAMIN KEYFİYYƏTİ VƏ MƏHSULDARLIĞI İLƏ BAĞLI BÜTÜN MƏSULİYYƏT SİZİN ÜZƏRİNİZƏ DÜŞÜR. PROQRAM TƏMİNATI NÖQSANLI OLARSA, BÜTÜN XİDMƏT VƏ YA TƏMİR XƏRCLƏRİNƏ DAİR SİZ ÖZ ÜZƏRİNİZƏ GÖTÜRƏCƏKSİNİZ. CİHAZ İSTEHSALÇISI VƏ YA MICROSOFT PROQRAM ÜÇÜN HƏR HANSI AÇIQ ZƏMANƏT, TƏMİNAT VƏ YA ŞƏRTLƏR TƏMİN ETMİR. İSTEHSALÇI VƏ MİCROSOFT SATIŞA YARARLI OLMASI, KEYFİYYƏT, XÜSUSİ MƏQSƏD ÜÇÜN UYĞUNLUQ VƏ QANUNLARIN POZULMAMASI İLƏ BAĞLI HƏR HANSI NƏZƏRDƏ TUTULAN TƏMİNAT VƏ YA ŞƏRTLƏRİ İSTİSNA EDİR. SİZ BU MÜQAVİLƏNİN DƏYİŞDİRƏ BİLMƏDİYİ YERLİ QANUNLAR ƏSASINDA ƏLAVƏ İSTEHLAKÇI HÜQUQLARINA VƏ YA İCBARİ QARANTİYALARA MALİK OLA BİLƏRSİNİZ.

BU MÜQAVİLƏDƏ NƏZƏRDƏ TUTULMADIĞINA BAXMAYARAQ, ƏGƏR YERLİ QANUNLARINIZDA HƏR HANSI ZƏMANƏT, QARANTİYA VƏ YA ŞƏRT TƏMİN EDİLİBSƏ, ONUN MÜDDƏTİ İLK DƏFƏ İSTİFADƏÇİ PROQRAMI ƏLDƏ ETDİYİ TARİXDƏN ETİBARƏN 90 GÜN MÜDDƏTİ İLƏ

MƏHDUDLAŞDIRILMIŞDIR. ƏGƏR İSTEHSALÇI VƏ YA MICROSOFT BU ZƏMANƏT, QARANTİYA VƏ YA ŞƏRTİ POZARSA, İSTEHSALÇI VƏ YA MICROSOFT ÖZÜ SEÇMƏK ŞƏRTİLƏ, SİZƏ VERİLƏCƏK YEGANƏ KOMPENSASİYA (I) PROQRAM TƏMİNATININ HEÇ BİR ÖDƏNİŞ EDİLMƏDƏN TƏMİR EDİLMƏSİ VƏ YA DƏYİŞDİRİLMƏSİ VƏ YA (II) PROQRAM TƏMİNATINI (VƏ YA ONUN SEÇMƏSİ ŞƏRTİLƏ, PROQRAMIN QURAŞDIRILDIĞI CİHAZI) QAYTARARAQ ÖDƏNİLMİŞ MƏBLƏĞİN GERİ GÖTÜRÜLMƏSİNDƏN İBARƏTDİR. BUNLAR ZƏMANƏT, QARANTİYA VƏ YA ŞƏRTİN POZULMASI HALINDA YERLİ QANUNLARDA NƏZƏRDƏ TUTULAN YEGANƏ KOMPENSASİYALARDIR.

YERLİ QANUNLAR QADAĞAN ETMİRSƏ, ƏGƏR ZƏRƏRLƏRİN KOMPENSASİYASI ÜÇÜN ƏSASINIZ VARSA, İSTEHSALÇI VƏ YA MICROSOFT ŞİRKƏTİNDƏN MAKSİMUM PROQRAM TƏMİNATI ÜÇÜN ÖDƏDİYİNİZ MƏBLƏĞİ (VƏ YA PROQRAM TƏMİNATINI PULSUZ ƏLDƏ ETMİSİNİZSƏ, MAKSİMUM 50 ABŞ DOLLARI) GERİ ALA BİLƏRSİNİZ. SİZ BU MÜQAVİLƏYƏ VƏ YA BAŞQA ŞƏRTLƏRƏ ƏSASƏN İTİRİLƏN GƏLİR, BİRBAŞA, XÜSUSİ, İKİNCİ DƏRƏCƏLİ VƏ YA TƏSADÜFİ ZƏRƏRLƏR DAXİL OLMAQLA DİGƏR HƏR HANSI ZƏRƏRLƏRƏ GÖRƏ KOMPENSASİYA VƏ YA ÖDƏNİŞİN QAYTARILMASINI TƏLƏB ETMƏMƏLİ VƏ YA HƏR HANSI HÜQUQDAN İMTİNA ETMƏMƏLİSİNİZ. BU MƏHDUDİYYƏT MÜVAFİQ QANUNLA İCAZƏ VERİLƏN ÇƏRÇİVƏDƏ (I) BU MÜQAVİLƏ, BU PROQRAM TƏMİNATI (TƏTBİQİ PROQRAMLAR DAXİL OLMAQLA), CİHAZ, XİDMƏTLƏR, MƏLUMATLARIN KORLANMASI VƏ YA İTMƏSİ, MƏLUMATLARI ÖTÜRƏ VƏ YA QƏBUL EDƏ BİLMƏMƏ, ÜÇÜNCÜ TƏRƏF İNTERNET SAYTLARINDAKI MƏZMUN (KOD DAXİL OLMAQLA) VƏ YA ÜÇÜNCÜ TƏRƏF PROQRAMLARI İLƏ ƏLAQƏLİ HƏR ŞEYƏ VƏ (II) MÜQAVİLƏ, ZƏMANƏT VƏ YA ŞƏRTİN POZULMASI İLƏ BAĞLI İDDİALAR; CİDDİ ÖHDƏÇİLİK, DİQQƏTSİZLİK VƏ YA DİGƏR MÜLKİ QANUNU POZMA; QANUN VƏ QANUNVERİCİLİYİN POZULMASI; VƏ YA QANUNSUZ ZƏNGİNLƏŞDİRMƏ; VƏ YA BAŞQA ƏMƏLLƏRƏ ŞAMİL OLUNUR.

SİZƏ HEÇ BİR KOMPENSASİYA DÜŞMƏDİKDƏ (PROQRAM TƏMİNATI "OLDUĞU KİMİ" LİSENZİYALAŞDIRILAN HALLARDA), TƏMİR, DƏYİŞDİRİLMƏ VƏ YA ÖDƏNİŞİN QAYTARILMASI (YERLİ QANUNLAR TƏLƏB EDİRSƏ) SİZİN ZƏRƏRİNİZİ TAM ÖDƏMƏDİKDƏ, İSTEHSALÇI VƏ YA MICROSOFT ZƏRƏRLƏRİN BAŞ VERMƏ EHTİMALI BARƏDƏ BİLİRDİSƏ VƏ YA BİLMƏLİ İDİSƏ VƏ YA KOMPENSASİYA ƏSAS MƏQSƏD ÜÇÜN VERİLMƏDİKDƏ BELƏ, BU MÜQAVİLƏDƏKİ ZƏRƏR İSTİSNALARI VƏ KOMPENSASİYA MƏHDUDİYYƏTLƏRİ TƏTBİQ OLUNUR.

Cihazınıza zəmanət verilib-verilmədiyini təyin etmək üçün cihazınızın istehsalçısına müraciət edin.